# Qəbələdə iftar süfrəsi

Azərbaycan Respublikası Milli Məclisinin üzvü, respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov iyul ayının 13-də Qəbələdə olmuş, hər il olduğu kimi bu il beşulduzlu Qafqaz «Resort» otelində ənənəvi iftar süfrəsi açmışdır. İftar süfrəsinə şəhər, qəsəbə və kənd inzibati ərazi nümayəndəliklərindən dindarlar, kimsəsizlər, imkansızlar, ağsaqqallar və rayon ictimaiyyətinin nümayəndələri dəvət olunmuşdur.

Məclisdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev və Qəbələ Cümə Məscidinin imamı Ceyhun Rüstəmov iştirak edirdilər.

Tədbirdə müdrik ağsaqqal Fəttah Heydərov çıxış edərək qeyd etdi ki, artıq 20 ildir sizinlə belə bir müqəddəs bayram süfrəsi arxasında görüşürük. Bu əziz bayram günündə arzu edirəm ki, sizlərin hər birinizin süfrələri həmişə bol nemətlərlə dolu olsun, bütün arzularınız həyata keçsin. Mən, bu müqəddəs Ramazan ayı və qarşıdakı orucluq bayramı münasibətilə bütün qəbələliləri təbrik edirəm və hər birinizə xoşbəxtlik, əmin-amanlıq, xoş günlər və can sağlığı arzulayıram.

Millət vəkili çıxışını davam edərək dedi ki, 24 ildir ölkəmiz müstəqillik yollarında sürətlə irəliləyir. Məlumdur ki, müstəqiliyimizin qorunub saxlanılmasında, möhkəmlənməsində xalqımızın ümummilli lideri Heydər Əliyevin xidmətləri əvəzsizdir. Bu gün onun siyasi kursunu layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev bütün sahələrdə uğurla davam etdirir. Hazırda ölkəmiz bu qısa zaman kəsiyində ümümdaxili məhsul istehsalı və inkişaf sürətinə görə ən iri dövlətlər sırasında öncül yer tutur. Bu gün Azərbaycanın tutduğu yol düzgün və ədalətli yol olduğuna görə onun nüfuzu günbəgün bütün dünyada artmaqdadır. Lakin bəzi bizi gözü götürməyənlər və Azərbaycanın bu günkü inkişaf tempinə paxıllıq edənlər ölkəmizə qarşı böhtanlara, qarayaxma kampaniyasına rəvac verdilər. Bu qarayaxma kampaniyasında erməni lobbisi və onun təsiri altında olan siyasətçilər, KİV və QHT-lər xüsusi fəallıq göstərirlər. Gözləndiyi kimi kampaniya artıq səngimək, dayanmaq üzrədir. Amma yaxşı da, pis də tarixdə qalır və gec-tez layiq olduğu qiyməti alır. Ümumiyyətlə, dünyanın haqsızlıq, ikili standartlar üzərində qurulmasına, bu ədalətsizliyə ən çox məruz qalan ölkələrdən biri olmasına baxmayaraq, Azərbaycan təmkinini itirmir, müstəqil siyasət yeritməkdə davam edir. Çünki Azərbaycan kiminsə sədəqəsinə göz dikən dövlətlərdən deyil ki, ona təzyiq göstərmək mümkün olsun. Birinci Avropa Oyunları tutduğumuz yolun düzgünlüyünü nümayiş etdirən misilsiz vasitə oldu, öz möhtəşəmliyi ilə bədxahların niyyətlərini puça çıxardı. İqtisadi-siyasi, sosial-psixoloji aspektlərinə baxmayaraq, «Bakı-2015» ilk növbədə idman bayramı, yarış və mübarizə meydanı idi. Nəhayət, ona məhz bu nöqteyi-nəzərdən yanaşmaq məqamına gəlib yetişdik.



Millət vəkili daha sonra qeyd etdi ki, cənab İlham Əliyevin həyata keçirdiyi regionların sosial-iqtisadi inkişaf proqramları çərçivəsində bu gun bu gözəl diyarımız Qəbələ də sürətlə inkişaf edir, yeniləşir, ən müasir şəhərlərdən birinə çevrilir.



Qəbələ son 5-6 ildir ki, ölkə və beynəlxalq əhəmiyyətli ən nüfuzlu tədbirlərə ev sahibliyi edir. Bu inkişafın qazanılmasında hər bir qəbələlinin böyük zəhməti vardır. Bu bölgənin şəhəri, qəsəbə və kəndləri sizin gərgin əməyinizlə yenidən qurulur, müasirləşir. Xatırlayırsınızmı, vaxtı ilə iftar məclisləri, rayonun ən mötəbər tədbirləri darısqal, yöndəmsiz, hətta belə heç bir texniki avadanlıqla təmin edilməyən salonlarda keçirilirdi. Bu gün isə həmin tədbirlər gözəl, işıqlı, yaraşıqlı, hər cür şərait yaradılmış geniş salonlarda qeyd edilir, insanlarımız da xoş əhval-ruhiyyə ilə, böyük razılıqla yaşayarlar. Söz yoxdur ki, bunların hamısı ölkəmizdə baş verən yeniliklərin, ulu öndər Heydər Əliyevin qoyub getdiyi siyasətinin və bu gün bu siyasəti davamlı şəkildə həyata keçirən cənab Prezidentimiz İlham Əliyevin gərgin əməyinin bəhrəsidir.

Millət vəkili, dünyagörmüş el ağsaqqalı çıxışının sonunda bir daha qarşıdan gələn müsəlmanların müqəddəs Ramazan bayramı münasibətilə məclisə gələnləri təbrik etdi, oruc tutanların orucunun bizi yaradan Ulu Tanrı tərəfindən qəbula keçirilməsini arzuladı.

Məclisdə Qəbələ məscidinin imamı Ceyhun Rüstəmov çıxış etmişdir. O, öncə iftar məclisinin səbəbkarı, müdrik insan və sədaqətli el ağsaqqalı Fəttah Heydərovu rayonun bütün dindarları, ağsaqqalları adından salamladı, ona bu əziz günlərdə xoş arzularını, ehtiramlarını bildirdi. O, eyni zamanda məclis iştirakçıları və öz adından, millət vəkili, respublika ağsaqqallar şurasının sədrinə minnətdarlığını bildirməklə ona Ulu Tanrıdan möhkəm cansağlığı, uzun ömür arzuladı.

Ceyhun Rüstəmov sonra «Qurani-Kərim»dən ayələr oxudu. Ramazan ayının əhəmiyyətindən və ayın fəzilətlərindən söhbət açdı, həmçinin bütün qəbələliləri qarşıdakı Ramazan bayramı münasibətilə təbrik etdi, onlara xoş arzularını bildirdi. O, sonra Ramazan orucunun açılmasını elan etdi.

Tədbiri hörmətli millət vəkilimiz Fəttah Heydərov yekunlaşdırdı və bir daha bütün qəbələliləri bayram münasibətilə təbrik etdi, onlara gələcək həyatlarında uğurlar və can sağlığı arzuladı.

**Aslan CƏLİLOV.**
**Fotolar İ. VƏLİZADƏNİNDİR.**

---

## Oğullar əsgər gedir

# Vətən sizə arxalanır

> ***Azərbaycan Silahlı Qüvvələrində xidmət etmək hər bir Azərbaycan vətəndaşı üçün, hər bir gənc üçün böyük bir iftixar mənbəyidir, şərəfli bir vəzifədir. Orduda xidmət etmiş, öz vətəndaşlıq borcunu yerinə yetirmiş hər bir gənc bizim cəmiyyətdə, həyatımızın bütün sahələrində ən dəyərli insan hesab olunmalıdır. Azərbaycan ordusu Azərbaycan xalqının, bütün dövlət orqanlarının, vətəndaşların diqqət və qayğısı ilə əhatə olunmalıdır.***
>
> **Heydər ƏLİYEV.**

Azərbaycan Respublikası vətəndaşlarının 2015-ci ilin iyul ayının 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət qulluqçularının ehtiyyata buraxılması haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 29 may 2015-ci il tarixli sərəncam imzalamışdır. Həmin sərəncam bütün respublika ərazisində olduğu kimi Qəbələ rayonunda da uğurla yerinə yetirilir.

İyul ayının 15-də şəhərin mərkəzində xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan parkda böyük şadyanalıq, çal-çağır, qələbəlik duyulurdu. Gənclər, uşaqlar, məktəblilər, ağsaqqallar meydana axışırdılar. Çağırışçıların ailə üzvləri, yaxınları, müharibə veteranları, idarə, müəssisə və təşkilatlardan gələn nümayəndələr gəncləri hərbi xidmətə yola salanların arasında idilər. Çağırışçı gənclər, şəhidlər xiyabanını ziyarət etdikdən sonra ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoydular. Mərasimdə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov, müavinlər—Arif Allahverdiyev, Ətayə Osmanova rayonun hüquq mühafizə orqanlarının rəhbərləri iştirak edirdilər.

Meydanda Azərbaycanın üçrəngli bayrağı dalğalanırdı. Azərbaycanın Dövlət Himni səsləndi. Təntənəli mərasim açıq elan edildi.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Qəbələ Rayon Şöbəsinin rəisi, polkovnik-leytenant Niyaz Məmmədov bildirdi ki, ordu quruculuğuna 1993-cü ildən ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə tarixi qayıdışından sonra başlandı. Artıq bu günkü ordumuz 90-cı illərdəki pərakəndə ordu deyildir. Bu gün ordumuz inkişaf və təkmilləşmiş dövrünü yaşayır, yüksək hərbi texnikaya, hər cür silah-sursata, yeni döyüş təyyarələrinə, helikopterlərə malikdir.

**(Ardı 4-cü səhifədə).**